

"Bu il Azərbaycanda keçiriləcək prezident seçkilərinin səsverməsində rekord sayda gəncin - 600 min gəncin iştirak edəcəyi gözlənilir"

Trend-in məlumatına görə, bu barədə çərşənbə axşamı keçirilən mətbuat konfransında gənclər və idman naziri Azad Rəhimov bildirib.

Nazir vurğulayıb ki, gənclərin səsvermədə iştirakı qurum üçün çox vacibdir: "Əsas məqsədimiz gənclər arasında maarifləndirmə aparmaq, onları seçki məntəqələrinə cəlb etməkdir".

Nazir qeyd edib ki, hazırda gənclər üçün seçkilərə çağırış rolikləri hazırlanır və bu yaxınlarda televiziyada nümayiş etdiriləcək.